# *İlham Əliyev:* Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır və güclü iqtisadiyyatdır

**Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda dövlətimizin başçısı bir daha bildirmişdir ki, islahat, şəffaflıq, məsuliyyət, qeyri-neft sektorunun inkişafı, ixracyönümlü məhsulların istehsalı, idxaldan asılılığın azaldılması, bütün bu amillər dayanıqlı inkişafı təmin edir**



**Ölkə Prezidenti İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda bu fikri böyük inam və qətiyyətlə ifadə etmişdir ki, 2016-cı il çox ciddi iqtisadi islahatlar ili olmalıdır və olacaq:**

"Artıq müvafiq qərarlar qəbul edilmiş, qanunvericiliyə dəyişikliklər olunmuşdur. Mən bir neçə fərman, sərəncam imzalamışam. Əlavə sərəncamlar imzalanacaq ki, biz bu il iqtisadiyyatımızı daha da gücləndirək. Bu islahatların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycan iqtisadiyyatı şəffaflığına görə dünyanın aparıcı ölkələrinin iqtisadiyyatlarından fərqlənməsin. Əminəm ki, biz bunu birgə səylərlə təmin edəcəyik."

Təbii ki, bu inamı şərtləndirən amil əvvəlki illərin uğurları və qarşıdakı illər üçün müəyyənləşdirilən prioritetlərdir: "Azərbaycanda ictimai-siyasi sabitlik qorunur, təmin edilir. Bunun başlıca səbəbi xalq-iqtidar birliyidir. Çünki bizim siyasətimiz Azərbaycan xalqının maraqlarını müdafiə edir. Mənim üçün Azərbaycan xalqının, Azərbaycan dövlətinin maraqları hər şeydən üstündür. Gördüyümüz bütün işlərin mahiyyəti və məqsədi ondan ibarətdir ki, daha da güclü dövlət, xalqımız üçün daha da yaxşı şərait yaradaq ki, Azərbaycan xalqı rifah içində, təhlükəsizlik şəraitində yaşasın və inkişaf etsin."

Həyata keçirilən siyasətin önündə insan amilinin dayandığını hər bir çıxışında bildirən dövlətimizin başçısı İlham Əliyev bu reallığı da diqqətə çatdırır ki, sosial islahatların təməlində güclü iqtisadiyyat dayanır. Cənab İlham Əliyev qeyd edilən konfransda bildirmişdir ki, baxmayaraq bu il də maliyyə vəziyyətimiz əvvəlki illərdəki kimi deyil, bir dənə də olsun sosial proqram ixtisar edilməyəcək. Əksinə əmək haqları, pensiyalar, sosial müavinətlər artırılıb. Ölkə Prezidenti diqqəti inkişafda əsas rol oynayan bu amilə də yönəltmişdir: "... əgər biz iqtisadi müstəqilliyi təmin etməsəydik, başqa ölkələrdən asılı vəziyyətə düşə bilərdik və düşəcəkdik. Necə ki, indi biz bəzi ölkələri görürük. Əgər özü-özünü təmin edə bilmirsə, bunun başqa yolu yoxdur, gərək başqasının iradəsi ilə hərəkət etsin." Azərbaycanın 24 illik müstəqillik tarixinə diqqət yetirdikdə iqtisadi və siyasi islahatların vəhdətliyi, irəli sürülən təşəbbüslərin xalq tərəfindən dəstəklənməsi fonunda iqtisadi imkanlarını genişləndirməklə yanaşı, iqtisadi müstəqilliyini də yüksək səviyyədə təmin etdiyini aydın şəkildə görürük. Ölkəmizin malik olduğu təbii resurslardan səmərəli istifadəsi, təşəbbüscüsü və iştirakçısı olduğu layihələrin icrası istiqamətində göstərdiyi səylər iqtisadi imkanlarının genişlənməsində stimuldur. Neft gəlirlərindən səmərəli istifadə məqsədilə yaradılan Dövlət Neft Fondunun vəsaitləri hesabına gerçəkləşdirilən mühüm sosial-iqtisadi layihələr ölkəmizin hərtərəfli inkişafını daha da sürətləndirir. Azərbaycanın bazar iqtisadiyyatına sadiq olduğunu xüsusi vurğulayan cənab İlham Əliyev sahibkarlığın inkişafı istiqamətində davamlı addımların atıldığını, bunun nəticəsi olaraq ümumi daxili məhsulda özəl bölmənin payının 80 faizdən çox təşkil etdiyini diqqətə çatdırır. Son 12 ildə bir milyon 500 min yeni iş yeri açılıb ki, bunun bir milyonu daimi iş yeridir.

Konfransda bu rəqəm də açıqlanmışdır ki, hesabat ilində özəl sektora maliyyə dəstəyinin daha da gücləndirilməsi məqsədilə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 5243 sahibkara 248,5 milyon manat güzəştli kredit verilib və bu kreditlər hesabına 12600-dək yeni iş yerinin açılması üçün şərait yaradılıb. Həmin kreditlərin 64 faizi regionların payına düşür. Ümumilikdə ötən il 84 mini daimi olmaqla 110 min yeni iş yeri açılıb. Qarşıdakı illərdə məşğulluğun artırılması məqsədilə regionlarda ənənəvi istehsal sahələrinin, o cümlədən pambıqçılığın, tütünçülüyün, eləcə də xalçaçılığın və digər sahələrin inkişaf etdirilməsi üçün müvafiq tədbirlərin görüləcəyi bildirilir. İqtisadiyyatın şaxələndirilməsi prioritet məsələ kimi öndədir. Bu məqsədlə yerli istehsalın inkişafı üçün zəruri addımlar atılır. Bu reallıq inkaredilməzdir ki, məhz iqtisadiyyatın düzgün əsaslar üzərində qurulması dünya ölkələrinin üzləşdiyi mürəkkəb problemlər fonunda Azərbaycanın dayanıqlı inkişafını, bütün sosial proqramların uğurlu icrasını təmin etmişdir. Məhz bu uğurlar Azərbaycanın beynəlxalq maliyyə qurumlarının hesabatlarında da birinciliyini qorumasını şərtləndirir. Davos Dünya İqtisadi Forumu ölkə iqtisadiyyatlarının rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı 40-cı yerə layiq görüb. Ölkəmiz dünya miqyasında 40-cı, MDB məkanında birinci yerdədir. Cənab İlham Əliyev konfransda bildirmişdir: "Ona görə, biznes, investisiya mühitinin yaxşılaşdırılması, iqtisadi, maliyyə sektorlarının, vergi, gömrük orqanlarının tam şəffaflaşması, vergi bazarının genişləndirilməsi, uçotun, statistikanın düzgün aparılması - bax, bütün bunlar çox vacib olan məsələlərdir... 2016-cı ildə biz bütün maliyyə-iqtisadi sistemimizi inkişaf etmiş ölkələrin təcrübəsinə əsasən təşkil etməliyik... Bizim statistikamız da aparıcı ölkələrin statistikasına xas olan bütün əlamətləri özündə ehtiva etməlidir."

Göründüyü kimi, Azərbaycanın hər addımında yeniliyə, modernləşməyə, dünya ölkələrinin təcrübəsini öyrənməyə və tətbiq etməyə göstərdiyi maraq, verdiyi önəm uğurların davamlılığına geniş yol açır. Bu günlərdə İsveçrənin Davos şəhərində "Dördüncü sənaye inqilabı" devizi altında keçirilən, dünyanın 100-dən çox ölkəsindən 2500-ə yaxın qonağın, o cümlədən bir sıra ölkələrin dövlət başçılarının, baş nazirlərin, şirkət rəhbərlərinin qatıldığı 46-cı Dünya İqtisadi Forumu iştirakçı ölkələrin malik olduğu iqtisadi imkanların, eyni zamanda onların inkişaf təcrübələrinin təqdimatında əhəmiyyətli rol oynadı. Azərbaycanın inkişaf modeli hər zaman yüksək dəyərləndirilir, öyrənilməsi bir zərurət kimi irəli sürülür. İqtisadi böhranın hələ də davam etdiyi, neftin qiymətinin 3-4-dəfə aşağı düşməsi ilə bütün dövlətlərdə maliyyə böhranının yaşandığı, milli valyutaların devalvasiya ilə üzləşdiyi məqamda dövlət başçılarının bir araya gəlməsi, dünya iqtisadiyyatının vəziyyəti, makroiqtisadi stabilliyin təminatı, beynəlxalq valyuta-maliyyə sisteminin dayanıqlılıq qabiliyyətinin artırılması və enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə həsr olunmuş ikitərəfli görüşlərin, dialoqların təşkili xüsusi əhəmiyyət kəsb edir. Ənənəvi olaraq hər il keçirilən, dünya hadisələrinin nizama salınması üçün zamanın tələbinə uyğun çağırışlarla dünya nizamını tarazlayan Dünya İqtisadi Forumunda gözlənilən risklərin qarşısının alınması ilə bağlı maraqlı müzakirələr aparıldı, rəy və təkliflər səsləndi, iqtisadiyyatın durğunluqdan çıxarılması kimi məsələlər təhlil olundu. Davos Forumunun builki mövzusunun sənaye inqilabının idarə edilməsi məsələlərinə həsr olunması təsadüfi deyildi. Foruma Azərbaycanın sənaye sahəsində qazandığı mühüm uğurlarla qatılan Prezident İlham Əliyev dövlət və hökumət başçıları ilə keçirdiyi görüşlərdə inkişafın Azərbaycan modelinin üstünlüklərindən, qarşılıqlı əməkdaşlığın əhəmiyyətindən bəhs etmişdir. O da məlumdur ki, dövlət başçısının Sərəncamı ilə 2014-cü ilin "Sənaye ili" elan edilməsi bu sahədə əsaslı təməl formalaşdırıb. Ölkənin sənayeləşməsi istiqamətində aparılan islahatların sürətləndirilməsi başlıca hədəf kimi müəyyənləşdirilib. Texnoparkların, emal müəssisələrinin, böyük sənaye komplekslərinin yaranması, ixracyönümlü sənaye məhsullarının istehsalının artırılması ilə ölkə iqtisadiyyatının dayanıqlı inkişafı təmin olunur. Sənaye müəssisələrində innovasiya yönümlü texnologiyaların tətbiqinin stimullaşdırılması, ixtisaslaşmış və ümumi təyinatlı sənaye şəhərciklərinin, iqtisadi zonaların yaradılması ilə bağlı görülən işlərin davam etdirilməsi, sahibkarlığın inkişafına diqqətin artırılması, iqtisadiyyatın şaxələndirilməsi kimi çağırışlar sənayeləşmənin həllinə yönəlmiş islahatlardandır. Bölgələrdə yerli xammala əsaslanan sənaye müəssisələrinin fəaliyyətinin keyfiyyətcə müasir səviyyədə qurulması və yeni müəssisələrin yaradılması istiqamətində tədbirlər həyata keçirilir. Son zamanlar sahibkarlara göstərilən diqqət və hüquqi bazanın möhkəmləndirilməsində məqsəd sənayenin inkişafını intensivləşdirməkdir. Xüsusi iqtisadi zonaların yaradılması və iqtisadi potensialı nəzərə alınmaqla hər bir iqtisadi rayon üzrə sənaye şəhərciklərinin salınması əsas hədəflərdəndir. Şaxələnmiş iqtisadiyyatı 3 dəfədən çox artan ölkəmizdə ötən il sənaye istehsalı 2,4, qeyri-neft sənayesi isə 8,4 faiz artmışdır.

Bütün bu sadalananlar bir reallığı ortaya qoyur ki, dövlətimizin həyata keçirdiyi siyasətin əsasında ölkəmizin hərtərəfli inkişafı, insanların rifah halının daha da yaxşılaşdırılması dayanır. İşsizlik, yoxsulluq problemlərinin həlli prioritet məsələlərdəndir. "Mən istəyirəm ki, Azərbaycanda, ümumiyyətlə, işsiz adam olmasın" söyləyən cənab İlham Əliyev bildirmişdir: "... bu il yerli icra orqanları daha çox iş yerlərinin yaradılması, investisiyanın cəlb edilməsi ilə məşğul olmalıdırlar." Azərbaycanın investisiya cəlbediciliyini qoruması, eyni zamanda investisiya yatıran ölkə kimi də mövqeyini möhkəmləndirməsi düşünülmüş və məqsədyönlü siyasətin nəticəsidir. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, Azərbaycan qurucuduq meydançasını xatırladır. Hazırda bütün bölgələr arasında sağlam rəqabət gedir. İnsanların rahat, əmin-amanlıq şəraitində, təhlükəsiz yaşaması, ölkənin hərtərəfli inkişafının daha da sürətləndirilməsi əsas məsələlərdəndir. Dövlətimizin başçısı bildirir ki, islahat, şəffaflıq, məsuliyyət, qeyri-neft sektorunun inkişafı, ixracyönümlü məhsulların istehsalı, idxaldan asılılığın azaldılması, bütün bu amillər dayanıqlı inkişafı təmin edir. Təsadüfi deyil ki, Azərbaycan dünyanın ən islahatçı və eyni zamanda xoşbəxt ölkəsi kimi tanınır, nüfuz qazanır. Düşünülmüş və planlı şəkildə aparılan islahatlar, müxtəlif sahələri əhatə edən dövlət proqramları və genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi Azərbaycanı dinamik inkişaf edən güclü, qüdrətli bir dövlətə çevirmiş, nüfuzlu və etibarlı tərəfdaş kimi dünyada tanıtmışdır. Konfransda dövlətimizin başçısı İlham Əliyev uğurlarımızın fonunda bu reallığı bir daha diqqətə çatdırmışdır: "Bu gün Azərbaycan dünya miqyasında seçilmiş ölkələrdəndir, ləyaqətli ölkədir, müstəqil siyasət aparan ölkədir. Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır və güclü iqtisadiyyatdır."

**Yeganə Əliyeva,**
***"İki sahil"***